# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ EKOLOJİ BƏRPA MODELLƏRİNİN QURULMASINDAKI ÇƏTİNLİKLƏR

**Məmmədov N.Ş., Seyfullayev F.S.**

*Bakı Dövlət Universiteti*
*nahidmemmedov19991@gmail.com*

Təbii ekosistemlər çox mürəkkəb sturuktura malik olduqları üçün bərpa işləri çox vaxt məqsədlərinə çatmır və bəziləri onun bərpasını qeyri-mümkün hesab edirlər. Bərpa prosesində çox zaman nəticələrin uğurlu alınmamasının bir neçə səbəbi vardır. 2009-cu ildə praktikantlar və elm adamları arasında aparılan sorğuda "elm-təcrübə boşluğu" həm elmin, həm də bərpa praktikasının böyüməsini məhdudlaşdıran ən ümumi səbəb kimi qeyd edilmişdir. Ekoloji bərpanın çətinliklərindən bir idə ekosistemlə yanaşı landşaftın da deqradasiyaya uğramasıdır.

Bərpa layihələrində uğursuzluqların baş vermə səbəblərindən biri də bərpa məqsədi kimi aydın məqsədlərin qoyulmaması və ya əsas ekoloji çərçivənin başa düşülməməsi, qeyri-adekvat tədbirlərin görülməsidir.

Normal vəziyyətlərdə ekoloji bərpa layihələrini yerinə yetirilərkən aşağıdakı məlumat mənbələrindən istifadə edirlər:

- Zərərdən əvvəl ekoloji təsvirlər, növ siyahıları və layihə sahəsinin xəritəsi;
- Keçmişdə və yaxınlarda havadan və yerdən çəkilmiş fotoşəkillər;
- Bərpa olunacaq ərazidə əvvəlki fiziki şəraiti və biofakt göstərən qalıqlar;
- Oxşar toxunulmamış ekosistemlərin ekoloji təsvirləri və növ siyahıları;
- Herbari və muzey nümunələri;
- Zərər baş verməmişdən əvvəl layihə sahəsini tanıyan insanların tarixi qeydləri və şifahi ifadələri;
- Fosil polen, kömür, ağacların illik halqalarının tarixi, gəmiricilərin sümükləri kimi paleoekoloji sübutlar.

Təssüflər olsun ki, işğaldan azad olunan ərazilərdə bu informasiyaların çoxu əlçatan deyil. Belə ki, zərərdən əvvəl ekoloji təsvirlər, növ siyahıları və layihə sahəsinin xəritəsi işğal zamanı itirilmiş, yanmış və 30 ilə yaxın dövr ərzində orada heç bir yeni tədqiqatlar aparılmamışdır. Bu ərazilərin əksər hissəsinin özünəməxsus ekosistemi olduğuna görə oxşar toxunulmamış ekosistemlərin tapmaq və onların ekoloji təsvirləri və növ siyahılarından istifadə etmək də, real deyil. İşğal olunmuş ərazilərdə əksər ekosistemlər tam dağıdıldığı üçün fosil polen, kömür, ağacların illik halqalarının tarixi, gəmiricilərin sümükləri kimi paleoekoloji sübutlar da tapmaq çox çətindir.